*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 5 iyun 2019-cu il № 43 (2360) Qiymət i 30 qəpik


# Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib



AZƏRTAC xəbər verir ki, təbrikdə bəşər övladını xeyirxahlığa, birliyə, mənəvi kamilliyə dəvət edən, öz mahiyyəti ilə insanların ruhunu təzələyən Ramazan ayının dünya müsəlmanlarının ən əziz ayı olduğu bildirilir. Qeyd edilir ki, oruc tutmaqla inanclı insanlara mənəvi-ruhi ucalığın, əxlaqi saflığın fərəhini, şəfqət, mərhəmət, həmrəylik duyğularının sevincini yaşadan Ramazan ayı ilahi hikmətlər xəzinəsi müqəddəs Quran-i-Kərimin nazil olması ilə əlamətdardır. Ramazan bayramı günlərində mömin vətəndaşlarımız Uca Yaradan qarşısında vicdani borc və vəzifələrini ləyaqətlə yerinə yetirmək, mənəvi zənginliyin üstünlüyünü yaşamaq fürsəti qazanırlar.

Vurğulanır ki, Azərbaycan İslam sivilizasiyasının tərkib hissəsi kimi bəşəriyyətin mədəni irsinə öz töhfələrini verib, böyük alimlər və mütəfəkkirlər yetişdirib. İslam və onun mahiyyətindən irəli gələn sülhpərvərlik, dözümlülük, bərabərlik, qardaşlıq və bu kimi dəyərlər Azərbaycanda tolerantlıq mühitinin, cəmiyyətdə vəhdət və harmoniyanın yaranmasında, multikulturalizm və humanizm ideyalarının bərqərar olmasında müstəsna rol oynayıb.

Təbrikdə qeyd edilir ki, bu günlər ölkəmizin hər yerində xalqımızın əmin-amanlığı üçün dualar edilir, şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. "İnanıram ki, bu müqəddəs bayram günlərində sizin dua və diləkləriniz Tanrı dərgahında qəbul ediləcək, Uca Yaradan öz mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir. Bir daha hər birinizi və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram", - deyə dövlətimizin başçısı bildirir.

## Azərbaycan vətəndaşlarının iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin

# Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə qərara alıram:

1. 2001-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1984-2000-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2019-cu il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.
2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2019-cu il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 iyun 2019-cu il.

## Azərbaycanın Müdafiə naziri MDB Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edəcək

İyunun 5-də Rusiya Federasiyasının Anapa şəhərində Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının iclası keçiriləcək.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov iclasda iştirak etmək üçün iyunun 4-də Anapa şəhərinə yola düşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iclasda cari hərbi əməkdaşlıq və qarşıda duran məsələlər müzakirə olunacaq.

## Ramazan bayramı münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə

# Müdafiə nazirinin təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki əməkdaşlar!

Sizi Ramazan bayramı münasibətilə təbrik edir, şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Mərhəmət, şəfqət, xeyirxahlıq, humanizm hissləri aşılayan Ramazan ayını xalqımız həmişə böyük sevgilə yaşayır. Ulu öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin qorunub saxlanması istiqamətində atdığı addımlar sayəsində əmin-amanlığın, qardaşlığın, həmrəyliyin təntənəsi olan müqəddəs Ramazan bayramı ölkəmizdə artıq uzun illərdir dövlət səviyyəsində qeyd olunur.

Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin davam etdirdiyi uğurlu siyasət və qətiyyətli islahatlar nəticəsində dövlətimiz daha da güclənib, iqtisadiyyatın dinamik inkişafı təmin edilməklə respublikamız regionda lider olmaqla dünya dövlətləri sırasında öz layiqli yerini tutmuşdur.

Müasir Azərbaycanın iqtisadi gücü qüdrətli ordu quruculuğunun da uğurla davam etdirilməsinə etibarlı zəmin yaradıb. Ordumuz ən müasir silahlarla təmin edilib, şəxsi heyətin döyüş əzmi yüksəlib, mənəvi-psixoloji təminatı daha da gücləndirilib, sosial məişət şəraitin yaxşılaşdırılması məqsədilə böyük addımlar atılıb.

Bu gün peşəkarlığını, döyüş qabiliyyətini daim artıran ordumuzun şəxsi heyəti inamla xidmətini davam etdirir və Ali Baş Komandanın bütün əmr, göstərişlərini məsuliyyətlə yerinə yetirməyə qadirdir.

Müqəddəs Ramazan bayramı münasibətilə respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsini ehtiramla yad edir, şəhid ailələrini, Vətən uğrunda sağlamlığını itirən döyüşçülərimizi və veteranlarımızı təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və Nizamnamələrə sadiq qalacaq, Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcək, torpaqlarımızın işğaldan azad edilməsinə hər an hazır olacaqsınız.

Bir daha hər birinizi təbrik edir, sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və hərbi xidmətinizdə yeni uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

# "Sarsılmaz qardaşlıq-2019" təlimində iştirak etmək üçün türkiyəli hərbçilər Naxçıvana gəlib



Azərbaycan ilə Türkiyə arasında əlaqələrin inkişafının əsas amilləri ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələrdir. Böyük Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və ulu öndər Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" fikirləri həm Türkiyədə, həm də Azərbaycanda iki ölkə arasındakı münasibətlərin tarixini, bu gününü və perspektivlərini dəqiq ifadə edən ən mükəmməl formuldur. Azərbaycan beynəlxalq aləmə inteqrasiyada, regional təhlükəsizliyin qorunmasında və ümumiyyətlə, ölkəmizin siyasi-iqtisadi, hərbi-texniki və elmi-mədəni maraqlarının reallaşmasında Türkiyə ilə hərtərəfli əməkdaşlığa böyük əhəmiyyət verir.

Əsası Ulu Öndər tərəfindən qoyulan Türkiyə ilə dostluq, qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Hərbi əməkdaşlıq haqqında sazişə əsasən keçirilən hərbi təlimlər bu birliyin, dostluğumuzun və qardaşlığımızın daha bir parlaq ifadəsidir.

Azərbaycanla Türkiyə arasında bütün sahələrdə uğurla inkişaf edən əməkdaşlıq əlaqələri hərbi sahəyə də sirayət edir. Ümumiyyətlə, Azərbaycan müstəqillik əldə etdikdən sonra Bakıya hərbi sahədə dəstək verən ilk dövlətlərdən biri məhz qardaş Türkiyə olub. Türkiyənin dəstəyi sayəsində Azərbaycan Ordusunda peşəkarlığın səviyyəsi artırılıb, ordumuzun maddi-texniki bazası gücləndirilib. Mütəmadi olaraq keçirilən ikitərəfli hərbi təlimlər də hərbi sahədə əməkdaşlığın inkişaf etdirilməsinə öz töhfəsini verir.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə əsasən, iyun ayının 7-dən 11-dək Naxçıvanda keçiriləcək "Sarsılmaz qardaşlıq-2019" birgə döyüş atışlı taktiki təlimi də bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Təlimə hazırlıq çərçivəsində iki qardaş ölkənin Dövlət bayraqlarının dəyişmə mərasimi keçirilib.

Bayraqdəyişmə mərasimində iştirak etmək üçün Əlahiddə Ümumqoşun Ordunun bayraq taqımı Naxçıvan şəhərindən Sədərək sərhəd-keçid məntəqəsinə - Araz çayı üzərindəki "Ümid" körpüsünə doğru yürüş edib. Eyni zamanda, Türkiyə Respublikasının bayraq taqımı Qars şəhərindən Sədərək sərhəd-keçid məntəqəsinə də doğru yürüş edib.

"Ümid" körpüsü üzərində Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirildikdən sonra iki qardaş ölkənin Dövlət bayraqlarının dəyişmə mərasimi keçirilib.

Bu günlərdə iyunun 7-dən 11-dək keçiriləcək "Sarsılmaz qardaşlıq-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təliminə cəlb edilmiş Türkiyə Silahlı Qüvvələrinin şəxsi heyəti və hərbi texnikası Naxçıvana gəlib.

Bu münasibətlə Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində təntənəli qarşılanma mərasimi keçirilib.

Digər təlimlər kimi bu hərbi təlim də bir daha təsdiq edəcək ki, ordunun gücü yalnız silah və texniki təminatla ölçülmür. Ordunun gücü həm də onun sıralarında xidmət edən şəxsi heyətin ruh yüksəkliyi, möhkəm iradəsi, vətənpərvərliyi və peşəkarlığı ilə ölçülür. Hərbi təlimlərdən çıxan nəticə budur ki, Azərbaycan və Türkiyə ordusu peşəkar olduğu qədər də vətənpərvərdir. Şəxsi heyətlərimiz ən yüksək mənəvi keyfiyyətlərə malikdirlər. Bu, bizim ən böyük nailiyyətimizdir.

**"Azərbaycan Ordusu"**

# Artilleriyaçılar "Msta-S" özüyeriyən haubitsalardan döyüş atışları keçiriblər





Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın dövlət və ordu quruculuğu təcrübəsi artıq dünyada mükəmməl örnəklərdən biri kimi qəbul edilir. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin siyasi, iqtisadi, hərbi, sosial, humanitar və bir çox sahələrdə həyata keçirdiyi uzaqgörən, uğurlu siyasəti nəticəsində dinamik inkişafa nail olunur, ölkəmiz bu gün əldə edilən inkişafın sayəsində beynəlxalq arenada öz mövqeyini gücləndirir və əsl söz sahibinə çevrilir. Bunun nəticəsində bu gün ölkəmiz və ordumuz özünün yeni keyfiyyət mərhələsinə qədəm qoyub. Azərbaycan ictimaiyyəti bunun əyani təsdiqini ötən il Azərbaycan Ordusunun yaradılmasının 100 illiyi münasibəti ilə keçirilən möhtəşəm hərbi paradda gördü. Paradda müxtəlif qoşun növlərini təmsil edən hərbçilərin, müasir hərbi texnikanın nümunəvi keçidi, hərbi təyyarələrimizin nümayiş etdirdikləri yüksək pilotajlıq bacarıqları Vətəni sevən hər kəsdə qürur və fəxarət hissi oyatdı. Aprel döyüşləri və Günnüt zəfəri də təsdiq etdi ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək gücündədi. Hər kəs bir daha əmin oldu ki, Azərbaycanın hər an düşmənə layiqli cavab verəcək güclü, qüdrətli və modern ordusu, hərbi arsenalında isə ən müasir, dünyanın qabaqcıl ölkələrinin ordularının silahlanmasında olan texnikalar var.

Hazırda respublikamızda ordu quruculuğu ən prioritet məsələlərdən biridir. Təbii ki, müharibə şəraitində yaşayan ölkə üçün bu, xüsusi əhəmiyyət kəsb edir. Son illərdə Azərbaycan Ordusu əsaslı inkişaf yolu keçib, ordumuzun maddi-texniki bazası müasirləşdirilib, döyüş qabiliyyəti artıb. Respublikamızda dünyanın ən nizami ordularından biri formalaşdırılıb. Maddi-texniki bazası durmadan təkmilləşdirilən ordumuzun peşəkarlığı da artıb.

Peşəkarlığın əldə olunmasında mütəmadi keçirilən hərbi təlimlərin rolu danılmazdır. Bu gün Azərbaycan Ordusu müxtəlif formatlı təlimlərə üstünlük verməklə döyüş hazırlığını lazımi səviyyədə saxlamağa çalışır. Eyni zamanda, təlimlər zamanı qoşunların döyüşə hazırolma səviyyəsinə gətirilmə qabiliyyəti, həmçinin maddi-texniki təminat məsələləri də yoxlanılır.

Bu günlərdə Azərbaycan Ordusunun Raket və Artilleriya Qoşunlarının cəbhəboyu zonada yerləşən bölmələrindən biri "Msta-S" özüyeriyən haubitsalardan döyüş atışları keçirib.

Atışlar zamanı müxtəlif məsafələrdə quraşdırılmış şərti düşmənin döyüş texnikası və mühəndis fortifikasiyasını təqlid edən tamölçülü hədəflər məhv edilib.

Ekipajlar, həmçinin mövqelərin dəyişilməsi və şərti döyüş zamanı hədəflərin koordinatlarının alınmasını məşq ediblər.

Digərləri kimi, bu təlim də sübut etdi ki, işğal edilmiş torpaqlarımız müasir, peşəkar Azərbaycan Ordusu tərəfindən azad ediləcək, Azərbaycan bayrağı işğaldan azad edilmiş bütün torpaqlarımızda, o cümlədən Şuşada, Xankəndidə qaldırılacaqdır. Ali Baş Komandanımızın sözləri ilə desək, "Bu, bizim əsas vəzifəmizdir. Biz bu vəzifəyə çatacağıq. Biz hər gün, hər an bu hədəfə yaxınlaşırıq. Bugünkü təlimlər bir daha onu göstərir ki, biz bu hədəfə bir addım da yaxınlaşmışıq".

**"Azərbaycan Ordusu"**

# Şəhid Aqil Omarovun "Şücaətə görə" medalı ailəsinə təqdim edilib

*Ermənistan silahlı qüvvələrinin törətdiyi qanlı təxribat nəticəsində şəhid olmuş Azərbaycan Ordusunun hərbi qulluqçusu Aqil Omarovun doğulub boya-başa çatdığı Qax rayonunun Ləläpaşa kəndində ölümündən sonra layiq görüldüyü "Şücaətə görə" medalının ailəsinə təqdim edilməsi münasibətilə təntənəli mərasim keçirilib.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərasimdə Müdafiə Nazirliyinin rəsmiləri, Qax və Xocavənd rayon İcra Hakimiyyətlərinin rəhbərliyi, ziyalılar, hüquq-mühafizə orqanlarının, Qeyri-hökumət təşkilatlarının, ictimaiyyətin nümayəndələri, kənd sakinləri, şəhidin hərbçi dostları və ailə üzvləri iştirak ediblər. Respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin səyyar-təşviqat maşını vasitəsilə şəhidlərin xatirəsinə Rekviyem səsləndirilib.

Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani şəhidin ailəsinə, doğmalarına bir daha başsağlığı verərək, onlara səbr, dözüm arzulayıb. Qeyd olunub ki, Aqil Omarov 1983-cü ildə anadan olub. Ailənin böyük övladıdır. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunudur. Hərbi xidmətdə, döyüşlərdə fərqləndiyinə, göstərdiyi şəxsi şücaətə görə sağlığında 5 döyüş medalı ilə təltif olunub. Dəfələrlə fəxri fərman və təşəkkürlərə layiq görülüb. Komandirlərin, xidmət yoldaşlarının, eləcə də tabeliyində olan şəxsi heyətin böyük hörmətini qazanıb.

Polkovnik A.Qurbani dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında söylədiyi bir fikri mərasim iştirakçılarının nəzərinə çatdırıb: "Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Azərbaycan əsgəri, Azərbaycan zabiti Vətən uğrunda, torpaq uğrunda canından keçməyə hazırdır... Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Biz hər an hazır olmalıyıq ki, torpaqlarımızı işğaldan azad edək".

Şəhidin dəfn mərasimində birlik və həmrəylik, təmkin və qələbəyə inam nümunəsi göstərməklə qaxlılar bir daha Ali Baş Komandanın işğal altında olan torpaqların azad edilməsi naminə hər bir əmrinə hazır olduqlarını təsdiq ediblər.

Aqil kimi peşəkar və bacarıqlı bir hərbçinin həlak olmasını ordumuz üçün ağır itki hesab edən Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev şəhidin atası Akif Omarovu hələ ötən əsrin 90-cı illərinin əvvəllərindən, könüllü olaraq cəbhəyə gəldiyi vaxtlardan tanıdığını diqqətə çatdırıb. Nazir müavini bildirib: "Şəhidimizin atası vətənpərvər insandır. Mən onu qanlı-qadalı döyüş meydanlarından tanıyıram. Könüllü olaraq cəbhəyə gəlmişdi. Hələ onda Aqil orta məktəbi bitirməmişdi. Ağır döyüşlərin nə olduğunu yaxşı bilən Akif Omarov nəinki oğlunun çətin və şərəfli zabitlik yolunu seçməsinə mane olmadı, hətta bu yolda ona xeyir-dua verdi, uğurlar arzuladı. Bir ata kimi ilk övladının uğurları onu çox sevindirərdi və inanıram ki, işğal olunmuş torpaqlarımızın azadlığı uğrunda müqəddəs savaş başladıqda şəhid atası Akif Omarov və digər iki oğlu da bizimlə birgə döyüşlərə atılacaq".

Bütün mərasim iştirakçıları bir ağızdan "Şəhidlər ölməz, Vətən bölünməz!" şüarını səsləndiriblər.

Sonra Azərbaycan Respublikasının Prezidenti adından hərbi qulluqçu Aqil Akif oğlu Omarovun "Şücaətə görə" (ölümündən sonra) medalı ilə təltif olunması haqqında Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri oxunub.

General-leytenant Kərim Vəliyev həmin medalı şəhidin böyük oğlu Uğurun yaxasına sancıb. Atasının əvəzindən generaldan icazə alan Uğurun "Azərbaycan Respublikasına xidmət edirəm!" deməsi mərasim iştirakçılarına duyğulu anlar yaşadıb.



Qax rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə şəhid ailələrinə, döyüşlərdə sağlamlığını itirənlərə, eləcə də müharibə veteranlarına göstərilən diqqət və qayğıya görə rayon sakinləri adından minnətdarlığını bildirib. İcra başçısı ATƏT-in Minsk Qrupu üzvlərinin münaqişəni tənzimləmək məqsədilə Azərbaycana gəldiyi bir vaxtda Ermənistan silahlı qüvvələrinin törətdiyi bu qanlı təxribatın bütün xalqımız kimi, hər bir qaxlının da hiddətləndirdiyini və ermənilərin bu hiyləgər və məkrli əməllərini lənətlədiklərini bildirib.

Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov bütün xocavəndlilərin şəhidin ailəsinə baş sağlığını çatdırıb.

Millət vəkili Azər Kərimli, şəhidin vaxtilə xidmət etdiyi hərbi birliyin zabiti polkovnik Babək Səmidli və başqaları çıxış edərək Azərbaycan Ordusunun uğur və nailiyyətlərindən, Aprel və Günnüt zəfərlərindən danışıb və istənilən vəzifəni yerinə yetirməyə hər an hazır olduqlarını bəyan ediblər.

Təntənəli mərasimin sonunda şəhidin valideynləri Akif və Ahuzar Omarovlar oğulları ilə fəxr etdiklərini və onun xidmətlərinin dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyinə görə minnətdarlıqlarını bildiriblər.

Mərasim "Biz gəlirik, Qarabağ!" vətənpərvərlik marşının ifası, şəhidin məzarının ziyarət olunması, ehsan süfrəsinin açılması və dualar oxunması ilə başa çatıb.

## Azərbaycan XİN: Ermənistan uydurma səbəb axtarmamalı, münaqişənin həllində nəticəyə yönəlik addımlar atmalıdır

Ermənistan Xarici İşlər Nazirliyinin Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttindəki sonuncu vəziyyətlə bağlı olduqca emosional və bir o qədər ziddiyyətli bəyanatla çıxış etməsinin səbəblərini anlamaq olar. Bu, böyük ehtimalla Ermənistan rəhbərliyinin hazırda ölkədəki daxili vəziyyətə reaksiyasına uyğundur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin açıqlamasında yer alıb.

Açıqlamada bildirilib ki, Ermənistan xarici işlər nazirləri səviyyəsində növbəti görüşə razılıq verib. Reallıqlar isə dəyişilməz olaraq qalır: Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş torpaqlarından çıxmalıdır. Gələcəkdə Ermənistana kimin rəhbərlik etməsindən asılı olmayaraq, bölgənin gələcək inkişafı üçün digər alternativ mövcud deyil.

"Ermənistan tərəfi etiraf etməlidir ki, insan itkisinin, fəlakətlərin və qarşılıqlı nifaqın səbəbi, məhz Ermənistanın təcavüzkar siyasəti və Azərbaycan ərazilərini işğal altında saxlaması və bu ərazilərdə yaşayan yerli azərbaycanlıların etnik təmizlənməsi siyasətidir. Ermənistan hər hansı digər uydurma səbəb axtarmağa vaxt sərf etməməli və beynəlxalq ictimaiyyətin də tələblərinə uyğun olaraq münaqişənin həllində nəticəyə yönəlik addımlar atmalıdır", -deyə açıqlamada qeyd edilib.

## İƏT-in Zirvə toplantısının kommünike sənədində Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti pislənilir

Mayın 31-də Səudiyyə Ərəbistanı Krallığının Məkkə şəhərində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) dövlət və hökumət başçılarının 14-cü Zirvə toplantısı keçirilib. "Əl-ələ gələcəyə doğru" devizi altında keçirilən Zirvə toplantısında Azərbaycan Respublikasını Baş nazir Novruz Məmmədov təmsil edib. Toplantının nəticəsində yekun kommünike sənədi qəbul edilib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sənədin 34-cü və 35-ci bəndlərində Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti ilə bağlı İƏT-in prinsipial mövqeyi öz əksini tapıb. Belə ki, bu bəndlərdə Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzkar siyasəti pislənir, beynəlxalq hüquq və BMT Nizamnaməsi ilə ərazilərin güc tətbiq etməklə işğalının qəbuledilməzliyi təsdiqlənir, BMT TŞ-nin 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinin yerinə yetirilməsi və işğalçı qüvvələrin Azərbaycan Respublikasının ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur.

Sənəddə İƏT dövlət və hökumət başçıları münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərinin toxunulmazlığı əsasında həllinə çağırır. Burada, həmçinin Azərbaycanın Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərində işğalçının davamlı silahla təmin edilməsi, ərazilərin demoqrafik, mədəni və fiziki xarakterinin dəyişdirilməsinə yönəlik qeyri-qanuni fəaliyyət, o cümlədən mədəni irsin və müqəddəs yerlərin dağıdılması və mənimsənilməsi, ictimai və şəxsi mülklərə müdaxilə etməklə qanunsuz iqtisadi və digər fəaliyyətin davam etdirilməsindən dərin narahatlıq ifadə olunur.

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası iştirakçılarının bir qrupu hərbi hissədə olub

*Azərbaycan Dövlət İqtisad Unveristetinin (UNEC) təşəbbüsü və təşkilatçılığı ilə "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında keçirilən Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası uğurla davam edir. Aksiya iştirakçılarının bir qrupu Müdafiə Nazirliyinin hərbi hissələrindən birində olub.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi hissənin komandanlığı tərəfindən qarşılanan professor, müəllim və tələbələr xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək Ulu Öndərə ehtiramlarını bildirib, abidə qarşısına güllər düzüblər.

Polkovnik İlqar Lətifov aksiya iştirakçılarına hərbi hissənin tarixi barədə ətraflı məlumat verib, Ulu Öndərin bu hərbi hissəyə səfərlərini, xeyir-duası ilə



Vətən oğullarını buradan birbaşa cəbhəyə yola salmasını xatırladıb. Nəzərə çatdırılıb ki, hazırda Azərbaycan Ordusunda hərbi hissələrin 80 faizindən çoxu yenidən qurulub və ya əsaslı təmir edilib. Bu istiqamətdə işlər uğurla davam edir. Xidmət keçmək üçün hər bir şəraiti olan bu hərbi hissənin açılışını bildirən əlvan lent 2016-cı ilin yanvarında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən kəsilmişdir. Geniş ərazini əhatə edən hərbi hissə möhkəm maddi-texniki və tədris bazasına malikdir. Burada bir çox dünya ordularının həsəd apara biləcəyi müasir hərbi xidmət şəraiti yaradılıb.

Nümayiş etdirilən videoçarxlar vasitəsilə ordu həyatı, arsenala daxil olan hərbi texnika və silahlar, eləcə də genişmiqyaslı əməliyyat-taktiki təlimləri ətraflı işıqlandırılıb. Əsgər yataqxanaları və yeməkxana, hərbi texnika, silah-sursat və digər avadanlıqlar təqdim olunan sərgi, eləcə də tibb məntəqəsində, idman meydançasında yaradılan şərait, geniş sıra meydanı aksiya iştirakçılarının böyük marağına səbəb olub.

Birinci olaraq UNEC-in Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasına qoşulan Respublika Veteranlar Şurasının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bir daha bu təşəbbüsü alqışladığını və Azərbaycan əsgərinə daim diqqət və qayğı göstərməyin, ona mənəvi dəstək olmağın hər bir vətəndaşın, qeyri-hökumət təşkilatı üzvünün, dövlət qurumlarının müqəddəs borcu olduğunu qeyd edib.

İdeoloji otaqda keçirilən "Sən kimsən, Vətən əsgəri?" adlı disput və "Bu gün gərək hər anımız Vətən desin!" mövzusunda dəyirmi masada həm hərbi qulluqçular, həm də UNEC-in nümayəndələri işgüzar müzakirələr aparıblar. Aksiya iştirakçıları ATƏT-in Minsk Qrupu həmsədrlərinin bölgəyə səfəri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən təmas xəttinin Ağdam rayonu istiqamətində törədilən qanlı təxribatı lənətləyib və düşmənin atəşkəs rejimini kobud pozması nəticəsində şəhid olan hərbi qulluqçu Aqil Omarovun əzizlərinə başsağlığı veriblər.

UNEC-in prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent, Qarabağ uğrunda döyüşlərin iştirakçısı, ehtiyatda olan zabit Mikayıl Zeynalov, vaxtilə bu hərbi hissənin əsgəri olmuş şəhid Qiyas Quliyevin qardaşı, iqtisad üzrə fəlsəfə doktoru İbrahim Quliyev, dekan müavini Elbrus Əkbərov, kafedra müdiri, fizika-kimya elmləri doktoru, professor Rövnəq Rzayev və Beynəlxalq İqtisadiyyat Məktəbinin direktoru Aqil Əzizovun əsgərlərlə fərdi söhbəti və şəxsi heyət qarşısında çıxışları hərbi qulluqçuların qələbəyə inamını daha da artırıb. Onlar 20 min nəfərlik UNEC-çilər ordusunun da bütün xalqımız kimi Azərbaycan əsgərinə arxadayaq olduqlarını vurğulayıblar. Tələbələr ali məktəbi tezliklə başa vurub, hərbi and içərək ordu sıralarında xidmətə başlayacaqları günü səbirsizliklə gözlədiklərini deyiblər.

Əsgər klubuna toplaşan hərbi qulluqçu uşaqları 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə təbrik olunub, hərbi hissəyə kitab dəsti hədiyyə edilib, aksiya iştirakçıları əsgərlərlə birlikdə nahar ediblər.

Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasının koordinatoru, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani bildirib ki, növbəti həftədə UNEC-in professor-müəllim və tələbələrindən ibarət yeni aksiya qruplarının Murovdağa, Lələtəpəyə, Hərbi Hava və Hərbi Dəniz Qüvvələrinə səfərləri planlaşdırılıb.



# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***3 iyun 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***4 iyun 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Silahlı Qüvvələrə Yardım Fonduna 100 milyon manatdan çox vəsait yığılıb

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il iyunun 1-dək 99 milyon 845 min 168,79 manat, 213 min 577,88 ABŞ dolları, 16 min 636 avro və 5000 rubl vəsait yığılıb.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.



# Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin ildönümü qeyd olundu

Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin yaranmasından 26 il ötür. Bu zaman kəsiyində Mərkəz tərəfindən çox böyük işlər görülüb, böyük işlərin altından böyük imzaları atılıb. Mərkəz yarandığı gündən etibarən hər zaman cəmiyyətdə və ordu həyatında ictimai rəyi formalaşdıran əsas vasitələrdən biri olub. Bu baxımdan milli-mənəvi dəyərlərin təbliğində Mərkəzin rolunu xüsusi qeyd etmək lazımdır. Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzi özünəməxsus fəaliyyət yolu keçib. Şərəfli, zəhmət və əziyyətlə dolu bir yol.

Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin yaradılmasının 26-cı ildönümündə İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini general-mayor Rasim Əliyev bildirdi ki, bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında ordu quruculuğu sahəsində həyata keçirilən uğurlu islahatlar nəticəsində ölkəmizin müdafiə qüdrəti möhkəmlənib, Azərbaycan Ordusunun döyüş qabiliyyəti yüksəlib və şəxsi heyətin mənəvi-psixoloji hazırlığı daha da artıb. "Bu gün Azərbaycanda ordu quruculuğu, ordunun müasir standartlar səviyyəsində inkişaf etməsi və orduda milli-mənəvi dəyərlərin qorunması dövlətin prioritet siyasətinə çevrilib. Azərbaycan Ordusunun şəxsi heyətinin arasında milli-mənəvi dəyərlərin təbliği və aşılanması işinin əsas yükü Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin üzərinə düşüb. Üzərinə düşən missiyanın öhdəsindən layiqincə gələn Mərkəz və onun kollektivi Vətənə olan sevgisindən güc alaraq Azərbaycan Ordusunu, dövlətimizin ordu quruculuğu prosesini, onun tarixini kadrlarda əbədiləşdirməkdədi. Azərbaycan vətəndaşı, Azərbaycan Ordusu, Azərbaycan Ordusunun hərbi qulluqçuları, ən əsası isə Azərbaycan xalqı naminə görülən vacib işinizdə sizlərə uğurlar arzulayıram".

İdarə rəisi Azərbaycan Ordusunda keçirilən son genişmiqyaslı əməliyyat-taktiki təliminə də toxundu və kollektivin bu təlimdə fəaliyyətini yüksək qiymətləndirdi. "Təlim zamanı kollektivin fəaliyyətinin təkmilləşdirilərək yeni səviyyəyə yüksəldilməsi, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra etməsi açıq-aydın hiss olundu. Fəaliyyətiniz Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirildi. Hesab edirəm ki, bu qurumun əsas məqsədi hərbi strategiyanın müəyyənləşdirilməsinə, cəmiyyətimizin, ordumuzun, tariximizin ən önəmli hissələrindən bəhs edən, gənclərdə yüksək vətənpərvərlik hissləri tərbiyə edən əsərlər yaradılmasına köməklik göstərməkdir və Mərkəz bu istiqamətdə kifayət qədər uğurlu fəaliyyət göstərir və bundan sonra da göstərəcəkdir".

Görüşdə şəxsi heyətə Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyevin təbriki çatdırıldı. Təbrikdə deyilirdi: "Döyüş və mənəvi-psixoloji hazırlıqda əldə edilən yüksək nailiyyətlərin təbliğ olunmasında, şəxsi heyətin hərbi vətənpərvərlik tərbiyəsində, döyüş ruhunun yüksəldilməsində, Azərbaycan



Ordusunun təbliğində və ictimaiyyət arasında nüfuzunun artırılması məqsədilə silsilə çəkilişlərin hazırlanmasında, ordumuzun fəaliyyətinin obyektiv işıqlandırılmasında və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin kollektivinin layiqli töhfəsi vardır.

İnanıram ki, bundan sonra da xidməti vəzifələrinizi layiqincə yerinə yetirəcək, ordu həyatının operativ işıqlandırılmasında səylərinizi artıracaqsınız".

Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin rəisi polkovnik-leytenant Samir Əfəndiyev öz adından, eyni zamanda, kollektivin adından Müdafiə Nazirliyinin rəhbərliyinə və gələn qonaqlara təşəkkürünü bildirdi. Zabit onu da qeyd etdi ki, Mərkəz bu günə kimi özünün həm texniki, həm də intellektual-yaradıcı potensialı baxımından üzərlərinə düşən vəzifələrin öhdəsindən gəlmək üçün çalışıb və bundan sonra da şəxsi heyət gücünü, istedadını, bilik və bacarığını əsirgəməyərək Azərbaycan dövləti və onun ordusu naminə layiqincə gəlməyə çalışacaq.

Sonda Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin döyüş hazırlığında və nizam-intizamda fərqlənən bir qrup hərbi və mülki qulluqçusuna fəxri fərman və çavuş hərbi rütbələri təqdim olundu.

**Kapitan
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"**

*Xalqın, dövlətin ən qiymətli sərvəti uşaqlardır. Uşaqlar xalqın, millətin gələcəyi, dövlətin möhkəmliyidir. Bu səbəbdən tarixən hər bir dövlət və cəmiyyət gələcəyi olan uşaqların qayğısına qalmağı, onların fiziki və mənəvi cəhətdən böyüməsini təmin etməyi özünün ən ümdə vəzifələrindən biri hesab etmişdir. Respublikamızda da bu mühüm məsələyə daim diqqət və qayğı ilə yanaşılır.*

# Uşaqlar gələcəyimizdir

Uşaqların Beynəlxalq Müdafiəsi Günü respublikamızın bir çox təşkilatlarında olduğu kimi, "N" hərbi hissəsində də böyük coşqu ilə qeyd olundu.

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin və hərbi hissənin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə Sumqayıt Regional Mədəniyyət və Turizm İdarəsinin nəzdindəki şəhər mədəniyyət evinin, Abşeron rayonu Novxanı Sənətkarlıq Klubunun, Əfqan Qadaşov adına Perekeşkül qəsəbə tam orta məktəbinin və "Yasəmən" uşaq bağçasının kollektivi iştirak edirdilər.

Öncə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni





səsləndirildi.

Polkovnik-leytenant Rasim İbrahimov əlamətdar gün münasibəti ilə uşaqları təbrik edərək bildirdi ki, 1 iyun bütün dünyada Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunur. "Bütün demokratik dövlətlərdə olduğu kimi, Azərbaycanda da uşaq hüquqlarının qorunmasına xüsusi önəm verilir. Ölkəmizdə onların sağlam, hərtərəfli, Vətənə layiqli övladlar kimi böyüməleri üçün hər cür şərait yaradılıb. Onların yüksək qayğı ilə əhatə olunması, əlverişli mənəvi və sosial mühitdə böyüməsi üçün ölkəmizdə zəruri şəraitin yaradılması, böyüməkdə olan nəslin layiqli vətəndaş kimi formalaşmasının əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Lider hələ ötən əsrin 70-ci illərində ölkəmizə rəhbərliyi dövründə uşaqlara xüsusi diqqət yetirmiş, həmin vaxt səhiyyə, mədəniyyət, təhsil ocaqlarının, məktəbdənkənar müəssisələrin şəbəkəsinin genişləndirilməsi uşaqların təhsilinə, dünyagörüşlərinin zənginləşdirilməsinə və sağlamlıqlarının qorunmasına öz təsirini göstərmişdir. Ulu Öndərin "Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır" kəlamı bizlərə məsuliyyətimizi xatırladır. Uşaqlara qayğı təkcə dövlətin üzərinə düşən vəzifə deyil. Hər bir şəxs uşaqların hərtərəfli böyüdülməsi üçün səy göstərməlidir. Çünki uşaqlar təkcə bir evin deyil, bütün el-obanın ən qiymətli, ən dəyərli sərvəti, hər bir xalqın gələcəyidir. Gələcəyimizi qorumaq isə hamımızın borcudur".

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin zabiti Günel Dadaşova qeyd etdi ki, 1950-ci il iyunun 1-də Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyası tərəfindən təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər irəli sürülüb. Həmin tarixdən etibarən dünyanın əksər ölkələrində 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunur... Azərbaycanda uşaqların müdafiə olunması və onlara qayğı göstərilməsi istiqamətində də son illər ərzində məqsədyönlü işlər görülüb. Ölkəmizdə uşaqların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər Konstitusiya, qanunverici və normativ-hüquqi aktlarla tənzimlənir. Bu sahədə əsas normativ sənəd 1998-ci il mayın 19-da qəbul edilmiş "Uşaq Hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunudur.

Leytenant Günel Dadaşova vurğuladı ki, Ulu Öndərin müəyyənləşdirdiyi dövlət uşaq siyasəti bu gün ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Son 10 ilə yaxın bir dövrdə ölkəmizdə uşaq problemlərinin həllinə yönəlmiş çoxsaylı Dövlət proqramları qəbul edilib, vahid dövlət uşaq siyasətinin formalaşması istiqamətində də uğurlu addımlar atılıb, uşaq hüquqlarının etibarlı təminat mexanizmləri yaradılıb.

Ulu öndər Heydər Əliyevin ideyalarını əməli fəaliyyəti ilə yaşadan Heydər Əliyev Fondu tərəfindən də genişmiqyaslı tədbirlər həyata keçirilir...".

Həzi Aslanov adına Ordu - İdeoloji və Mədəniyyət Mərkəzinin nümayəndəsi Gülxar Məmmədova bildirdi ki, uşaqlar dünyanın sevinc mənbəyidir. "Uşağın doğması-ögeyi yoxdur. Tanımadığın birisinin balasını da öz balan, öz körpən kimi sevə, əzizləyə bilirsən. Səbəbi - uşaq məsumdur, müqəddəsdir, pakdır və təmizdir. Uşaq sevincdir, xoşbəxtlikdir. Bu bayram münasibəti ilə istər respublikamızda, istərsə də bütün dünyada yaşayan uşaqları təbrik edir, onlara məşhur mahnıda deyildiyi kimi, aydın səma, parlaq günəş və bol-bol sevinc arzulayırıq. Qoy səhərlərimiz körpə gülüşləriylə açılsın. Körpə gülüşü dünyanın sevinc himninə çevrilsin".

Şəhər mədəniyyət evinin təşkil etdiyi rəsm sərgisini, "Narbala" kukla teatrının hazırladığı tamaşanı maraqla izləyən uşaqlar daha sonra sevimli cizgi qəhrəmanları Maşa, ayı və Şreklə görüşdülər, vətənpərvərlik, qəhrəmanlıq ruhlu şeirlər söylədilər.

Tədbir Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin, Abşeron rayonu Novxanı Sənətkarlıq Klubunun "Xəzər ulduzları" rəqs ansamblının bir-birindən şən mahnı və rəqsləri ilə başa çatdı.

**Baş leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası çərçivəsində növbəti tədbir keçirilib

*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşəbbüsü ilə "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında keçirilən Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasına qoşulanların sayı gündən-günə daha da çoxalır.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, aksiya çərçivəsində Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təşkil edilən Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursantları ilə görüşdə UNEC-in professor, müəllim və tələbələri ilə yanaşı, aksiyaya qoşulan Xalq şairi Vahid Əziz, universitetin məzunlarından Xalq artisti Niyaməddin Musayev və Əməkdar artist Nizami Abdullayev də iştirak ediblər.

Aksiya iştirakçıları əvvəlcə Heydər Əliyev muzey-lektoriyasında Ulu Öndərin həyat və fəaliyyətinə, ordu quruculuğundakı müstəsna xidmətlərinə həsr olunmuş ekspozisiya ilə tanış olublar. Sonra iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun abidəsi ziyarət edilərək qarşısına qərənfillər düzülüb.



Nəzərə çatdırılıb ki, 1994-cü il mayın 9-da bu abidənin açılışına həsr olunmuş təntənəli mərasimdə xalqımızın ümummilli lideri Heydər Əliyev şəxsən iştirak edib və kursantlar qarşısında geniş nitq söyləyib. O vaxt əbədiyaşar Ali Baş Komandan gələcəyin zabitlərinə xitabən deyib: "Hərbi peşə, zabitlik peşəsi, Vətəni müdafiə işi müqəddəsdir... İstəyirəm ki, siz də həyatda yüksəlməkdə də, xalqı və Vətəni sevməkdə də, yeri gələrsə, haqq işi uğrunda canından keçməyi bacarmaqda da Həzi Aslanova oxşayasınız".

Gələcəyin kursantları Ulu Öndərin arzularını həmişə həqiqətə çevirmiş və bu gün də Heydər Əliyev ideyalarına sadiqdirlər. Bu təhsil ocağından pərvazlanan 10 nəfər Azərbaycanın Milli Qəhrəmanı, 20 nəfərdən çoxu isə general, admiral ali hərbi rütbələrinə layiq görülüblər.

Xalqımızın haqlı olaraq "Heydər Əliyev məktəbi" adlandırdığı Hərbi liseyin kursantları aksiya iştirakçılarını "Naxçıvanskilər marşı"nı ifa edərək qarşılayıblar.

Ulu öndər Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni ifa olunub. Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzinin hazırladığı aksiyanın təntənəli açılışına və cəbhə bölgələrində, ayrı-ayrı hərbi hissələrdə keçirilən tədbirlərlə bağlı videoçarx nümayiş etdirilib.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani Azərbaycan əsgərinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının, o cümlədən vətənpərvərlik hissinin daha da yüksəldilməsində bu layihənin əhəmiyyətindən danışaraq, UNEC-in rəhbərliyinə, şəxsən rektor Ədalət Muradova minnətdarlıq edib.



Hərbi liseyin rəisi general-mayor Bəkir Orucov aksiya iştirakçılarını salamlayıb. Tədbirin həm kursantların, həm də qonaqların xatirindən uzun müddət silinməyəcəyinə əminliyini bildirib.

UNEC-in Tələbələrlə İş üzrə prorektoru, iqtisad elmləri namizədi, dosent Səadət Qəndilova Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasının nəinki hərbçilərin, eləcə də 20 min nəfərlik universitet kollektivinin də vətənpərvərlik hissinin, işğal altındakı torpaqlarımızın tezliklə azad ediləcəyinə, respublikamızın ərazi bütövlüyünün tam bərpa olunacağına inamının daha da artmasına səbəb olduğunu qeyd edib, kursantlara məsləhətlərini verib, onlara təhsildə uğurlar arzulayıb.

Hələ sovet ideologiyasının tüğyan etdiyi bir dövrdə analoqu olmayan belə bir hərbi məktəbin əsasını qoymuş dahi rəhbər Heydər Əliyevin "Mən sizə baxaraq Azərbaycanın gözəl gələcəyini görürəm" sözləri ilə kursantlara müraciət edən filologiya elmləri doktoru, professor Afət Abbasova deyib: "Mən ilk dəfədir ki, Hərbi liseyin kursantları arasındayam. Sevincimin həddi-hüdudu yoxdur. Qarşımda Azərbaycanın gələcək sərkərdələridir. Həqiqətən burada təhsil almaq, gənc yaşlarından əsgər libası, əsgər çəkməsi geyib hərbin çətin, həm də şərəfli yollarında ilk kövrək addımlar atmaq hər kəsə nəsib olmur. Siz yeniyetmə ikən taleyinizi Vətənə xidmət peşəsinə həsr etmisiniz və inanıram ki, ordumuzda ən ali hərbi rütbələrə, ən böyük vəzifələrə yüksələcəksiniz. Bütün peşələr gözəldir. Ancaq bu gün Vətənimizə hərb yolunu seçən sizin kimi igid oğullar daha çox lazımdır. Uğur olsun, əziz balalar!".

Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Prezidentin müvafiq Sərəncamı ilə bir neçə gün öncə "Xalq şairi" fəxri adına layiq görülmüş Vahid Əziz Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasına qoşulan ilk şairlərimizdəndir. Onun alovlu çıxışı və oxuduğu vətənpərvərlik şeirləri alqışlarla qarşılanıb.



UNEC-in Rus İqtisad Məktəbinin direktoru, iqtisad elmləri namizədi, dosent Mənsur Bərxudarov, İqtisadiyyat fakültəsinin dekanı, iqtisad elmləri namizədi, dosent Asiman Quliyev, Ekspertiza və Standartlaşdırma fakültəsinin dekanı, texnika elmləri namizədi, dosent Tofiq Osmanov, Elektron İdarəetmə Mərkəzinin direktoru, fizika-riyaziyyat elmləri namizədi, dosent Zöhrə Həsənova, Hüquq şöbəsinin müdiri Kəmalə Bünyadova, tələbələrdən Rüfət Süleymanlı, Yusif Cəfərzadə, Mina Ələsgərova, Yasin Məmmədov, Nərmin Heydərova və İslam İsmayılov regionun ən güclü ordusu olan Azərbaycan Ordusu ilə fəxr etdiklərini bildirərək, möhtərəm Prezidentimiz İlham Əliyevin Ali Baş Komandanlığı ilə Aprel və Günnüt əməliyyatlarında qazanılan zəfərlərdən, atəşkəs rejimini intensiv olaraq pozan Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısını mərdliklə alan döyüşçülərimizin qəhrəmanlıqlarından qürur duyduqlarını vurğulayıblar. Onlar xalqımızı "Hər şey Ordu üçün, hər şey Qələbə üçün!" şüarı altında birliyə, həmrəyliyə səsləyib və gənc "Naxçıvanskilərə" böyük orduya gedən yollarda büdrəməməyi arzulayaraq, onları Ramazan bayramı münasibətilə təbrik ediblər.

1970-1980-ci illərdə universitetin məzunları olmuş Xalq artisti Niyaməddin Musayev və Əməkdar artist Nizami Abdullayev Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasında sevimli ali məktəblərinin professor, müəllim və tələbələri ilə bir yerdə kursantlar qarşısında çıxış etdiklərindən fərəh hissi keçirdiklərini deyib və qələbəyə səsləyən mahnılarla kursantları sevindiriblər.

UNEC-in professor, müəllim və tələbə heyətinin Azərbaycan əsgərinə müraciəti oxunub.

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini general-mayor Rasim Əliyev aksiya iştirakçılarına Müdafiə Nazirliyinin rəhbərliyi adından minnətdarlığını bildirib və bu kimi vətənpərvərlik tədbirlərinin şəxsi heyətin mənəvi tərbiyəsində mühüm rol oynadığını qeyd edib.

Tədbir Üzeyir Hacıbəylinin "Cəngi" musiqisinin sədaları altında başa çatıb.

UNEC-in Qadınlar Şurasının fəalları iyunun 5-də Murovdağa yola düşəcək və Ramazan bayramını mətin əsgərlərimizlə birlikdə ön səngərdə qeyd edəcəklər.



*Fiziki hazırlıq*

# "Hərbi hissəmizdə hər cür şərait yaradılıb"

Ali Baş Komandan İlham Əliyevin apardığı uğurlu islahatlar nəticəsində, ordumuz regionun ən güclüsüdür. Hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı, şəxsi heyətin müasir silah və texnikadan məharətlə istifadə etmək bacarığı digər ordularla müqayisəedilməzdir. Bütün bunlar maddi-texniki bazanın gündən-günə güclənməsi, əsgərlərimizlə keçirilən məşğələlərin yüksək səviyyədə olması hesabına nail olunub. Günün nizam qaydasına uyğun olaraq şəxsi heyətlə mütəmadi olaraq taktiki, atəş, sıra, mühəndis və fiziki hazırlıqdan dərslər keçirilir. Hərbi qulluqçuların fiziki cəhətdən möhkəm olması mühüm amillərdən biridir. Yuxarı komandanlıq şəxsi heyətin fiziki hazırlığını həmişə diqqət mərkəzində saxlayır. Bu sistemli şəkildə həyata keçirilir. Bununla yanaşı, müxtəlif idman yarışları təşkil olunur.

Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissədə şəxsi heyətin fiziki hazırlıqla məşğul olduğunun şahidi olduq. Bizi müşayiət edən mayor Nemət Rəhimov bildirdi ki, əsgərlərimizin fiziki cəhətdən möhkəm olması döyüş meydanında sağ qalmasının təminatıdır. "Fiziki hazırlıq döyüş hazırlığının ayrılmaz hissəsidir. Fiziki cəhətdən güclü hərbi qulluqçu istənilən tapşırığı uğurla icra etməyə qadirdir. Bunu əsas tutaraq, komandirlərimiz şəxsi heyətin fiziki hazırlığını diqqət mərkəzində saxlayırlar. Hərbi hissəmizdə də bunun üçün hər cür şərait yaradılıb. Ancaq unutmamalıyıq ki, hər bir hərbi qulluqçu fiziki hazırlığına görə fərdi məsuliyyət daşıyır. Ordumuzun sıralarında xidmət edən gənclərimiz təyin olunmuş vaxtlarda idmanla məşğul olur, müxtəlif çalışmalar yerinə yetirirlər. Nəticədə sağlamlıqları möhkəmlənir, təlimlərdə cəld və dözümlü olurlar."



- Hələ kiçik yaşlarımdan idmanın güləş növü ilə məşğul oluram, - deyə əsgər Əkbər Əliyev söhbətə başladı. - Həmişə televiziyada güləş üzrə yarışlara, məşhur idmançılara həsr edilən filmlərə baxırdım. Nə vaxtsa mən də onlar kimi olmaq, bayrağımızı ucaltmaq istəyirdim. Məqsədimə çatmaq üçün daim öz üzərimdə çalışırdım. Gündən-günə təcrübəm artırdı. Nəhayət, 2015-ci ildə təşkil olunan yarışda ikinciliyi qazandım. Bu qürurverici idi. Ancaq məqsədimə hələ çatmamışdım. Məşqlərimi davam etdirir, başqa yarışlara da qatılırdım. Sözsüz ki, çəkdiyim əziyyət tez bir zamanda öz bəhrəsini verdi. Üçrəngli bayrağımızı dalğalandırmaq mənə də qismət oldu. İndi hərbi xidmətdəyəm. Lakin məşqlərimi dayandırmamışam. Hərbi mundiri daşıyaraq məşqlərimi daha inamla davam etdirirəm. İnanıram ki, tez bir zamanda yarışlarda üçrəngli bayrağımızı dalğalandırdığım kimi, Qarabağımızın ən yüksək zirvəsində də dalğalandıracağıq.

"Vətənimizi istər döyüş meydanında, istərsə də beynəlxalq yarışlarda təmsil etmək bizim müqəddəs borcumuzdur. Atam Qarabağ müharibəsi veteranıdır. O bizə həmişə idmanla məşğul olmaqdan danışırdı. Deyirdi ki, fiziki cəhətdən möhkəm, güclü olmaq həyatda, ən əsas isə düşmənə qarşı mübarizədə çox vacib şərtdir. Onun tövsiyələrinə əsasən sərbəst vaxtlarımda idmanla məşğul olurdum. Həyətimizdə turnik, paralel qollar düzəltmişdik. Xidmətə gəldikdən sonra da daha səylə idmanla məşğul oluram. Komandirlərim burada da köməklik göstərir, fiziki hazırlığımızı artırmağımız üçün şərait yaradırlar. Onlardan yeni elementlər öyrənirəm. İndi yaş qrupuma uyğun olaraq bütün normativləri yerinə yetirirəm", - əsgər Xəyyam Qədirov dedi.

Əsgərlərimiz idman alətlərində müxtəlif elementləri yerinə yetirdikcə, onların fiziki cəhətdən hazırlıqlı olduqları hiss olunurdu. Zabitlərin də vəzifə borclarına nə qədər məsuliyyətlə yanaşmaları sezilirdi. Biz də onlara üçrəngli bayrağımızı işğaldan azad olunan torpaqlarımızda dalğalandırmalarını arzu edərək sağollaşırıq.

# "Yarışlar bizi bir yumruq kimi birləşdirir"

Azərbaycan Ordusunda şəxsi heyətin asudə vaxtının səmərəli keçməsinə xüsusi diqqət yetirilir. Asudə vaxtda hərbi qulluqçularla müxtəlif növ yarışlar da keçirilir. Yarışlar əsgərlərimizin zehni inkişafında, gücünün və dözümlülüyünün artmasında müstəsna rol oynayır. Bu mənada ən qədim və geniş yayılan yüngül atletika yarışlarının keçirilməsi vacibdir.

"N" hərbi hissəsində əsgərlərimizin bölmələr arasında komandalara bölünərək estafet qaçışında iştirak etdiklərinin şahidi olduq. Bölmə komandirinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavini kapitan Emin Əliyev bildirdi ki, estafet yarışında üç komanda iştirak edir. "Şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin, döyüş ruhunun yüksək səviyyədə olması əsas vəzifələrimizdən biridir. Mütəmadi olaraq müxtəlif növ yarışlar təşkil olunur. Bu gün şəxsi heyət arasında estafet qaçışı keçiririk. Qaçışda 12 nəfərdən ibarət 3 komanda iştirak edir. İştirakçılar növbə ilə ümumi məsafənin eyni və ya müxtəlif uzunluqda mərhələlərini qaçacaqlar. Hər mərhələnin sonunda əllərində tutduqları estafet çubuğunu komanda yoldaşına verir, idman çubuğunu alan isə yarışı davam etdirir. Yarış yolu hər komandanın iştirakçısı üçün bölünür. Onu da qeyd edim ki, hər döngədə mərkəzə yaxın olan iştirakçının yolu daha qısa olur. Bu səbəbdən start yerləri cığırın uzunluğuna uyğun olaraq qabağa çəkilir. Yarışa hazırlıq zamanı çalışmışıq ki, bütün bunları nəzərə alaq. Qaçışda qalib gələn komandanın üzvləri müxtəlif hədiyyələrlə qiymətləndiriləcəklər."



Yarış bitdikdən sonra qalib gələn şəxsi heyətlə söhbət etmək imkanı qazandıq. İlk həmsöhbətimiz əsgər Dəyanət Ağayevdir.

- Hərbi xidmətə başladığım andan komandirlərimizin diqqət və qayğısı ilə əhatə olunmuşuq, - deyə əsgər D.Ağayev bildirdi. - Asudə vaxtımız səmərəli və maraqlı keçir. Müxtəlif növ yarışlar keçirilir. Yarışlar zamanı bir birimizlə rəqabət aparmağımıza baxmayaraq, yarışdan sonra yoldaşlarımızın qələbəsinə sevinirik. Bu cür yarışlar bizi daha da yaxınlaşdırır, bir yumruq kimi birləşdirir. Döyüş meydanında bu vacib amillərdən biridir. Bununla yanaşı, hərbi biliklərimizin də artırılmasına xüsusi diqqət yetirilir. Bunun üçün hərbi hissəmizdə hər cür şərait yaradılıb.

"Qalib komandanın üzvü olmağımla qürur duyuram. Hər birimiz əlimizdən gələni edirdik ki, qalib olaq. Ancaq uduzsaq da, üzülmüyəcəkdim. Çünki bizim üçün yarışda qalib olmaq yox, iştirak etmək vacib idi. Tərxis olmağıma az vaxt qalıb. Xidmət günlərim heç vaxt yadımdan çıxmayacaq. Xidmətim dövründə hərbi biliklərimi və vərdişlərimi artırdım. Bunda komandirlərimin köməyi böyükdür. Çox istərdim ki, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə mənim də payım olsun. Tərxis olsam da, hər zaman yenidən ordu sıralarına qayıtmağa hazıram", - əsgər Xaliq Məhərli dedi.

Əsgərlər Elvin Abbaslı, Rəşad Abbasov, Xəyyam Həsənov, Hikmət Pənahov, Cavid Cavadov və Akif İsmayılov xidmətlərinin səmərəliliyindən, hərbi hissədə yaradılan sosial-məişət şəraitindən danışdılar. Hər zaman Vətənimizin dilbər güşələrini düşməndən azad etməyə hazır olduqlarını bildirdilər.

**Baş leytenant Ruslan HƏSƏNZADƏ, "Azərbaycan Ordusu", fotolar C.CƏFƏROVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə hərbçiləri İraqın şimalında terrorçulara məxsus mağara və sığınacaq aşkarlayıblar



Türkiyə Silahlı Qüvvələrinin İraqın şimalında həyata keçirdiyi "Pençe hərəkatı" antiterror əməliyyatı nəticəsində bölgədəki terrorçu qruplara daha bir ağır zərbə vurulub.

Türkiyə Milli Müdafiə Nazirliyinin "Twitter" səhifəsinə istinadla xəbər verilir ki, aviasiya zərbələrindən sonra hərbçilər terrorçulara məxsus 3 mərtəbə və 5 bölmədən ibarət əllə qazılmış mağara, həmçinin 5 sığınacaq aşkarlayıblar. Aşkar edilən yerlərdə terrorçulara məxsus külli miqdarda ləvazimat, silah-sursat ələ keçirilib.

## Suriyada avtomobilin partladılması nəticəsində azı 14 nəfər ölüb



Suriyanın şimal-qərbində Türkiyənin sərhədinə yaxın ərazidə yerləşən Azaz şəhərində minalanmış avtomobil partlayıb.

Partlayış nəticəsində azı 14 nəfər həlak olub, 28 nəfər isə müxtəlif xəsarətlər alıb.

Partlayış şəhər mərkəzindəki cinayət təhlükəsizliyi sektorunun qərargahı yaxınlığında baş verib.

Qeyd edilir ki, hadisə yerində çoxlu sayda insan olduğu üçün ölənlərin sayı arta bilər.

Bölgədə fəaliyyət göstərən ekstremist qrupların heç biri məsuliyyəti öz üzərinə götürmür.

## İtaliya Hərbi Dəniz Qüvvələrinə məxsus gəmi çətinliklə üzləşən miqrantları xilas edib



İtaliya Hərbi Dəniz Qüvvələrinə məxsus gəmi Liviya sahillərində rezin qayıqda köməksiz vəziyyətdə qalan 90 miqrantı xilas edib.

Aralıq dənizində fəlakətlə üzləşən miqrant gəmiləri üçün nəzərdə tutulan "qaynar xətt" miqrantlarla son danışıqları cümə axşamı saat 8 radələrində qeydə alıb. Onlar qayıqda 5 yaşlı qızın öldüyü barədə məlumat veriblər.

Havanın kəskin pisləşməsi və qayığın mühərriksiz olması nəticəsində miqrantlar dənizdə köməksiz qalmışdılar.

## Əfqanıstanda talibləlrlə döyüşdə 9 polis əməkdaşı həlak olub



Əfqanıstanın şimalında yerləşən Baqlan əyalətində "Taliban" hərəkatının silahlıları ilə döyüşdə azı 9 polis əməkdaşı həlak olub, üç nəfər isə yaralanıb.

İnsident mayın 31-də gecə saatlarında Baq-e-Şamal rayonunda baş verib. Burada "Taliban" hərəkatının 10 döyüşçüsü yerli polis bazasına hücum edib.

Əyalət şurasının üzvü Bismillah Ataşın sözlərinə görə, toqquşma nəticəsində hücum edən bir neçə silahlı da öldürülüb.

Əfqanıstanda hökumət qüvvələri və kənd rayonlarında xeyli üstünlüyə yiyələnərək böyük şəhərlər istiqamətində hücumları genişləndirən "Taliban" hərəkatının silahlıları arasında qarşıdurmalar davam edir. Həmçinin ölkədə İŞİD qruplaşmasının da təsiri artır. Əfqanıstanın milli müdafiə və təhlükəsizlik qüvvələri beynəlxalq koalisiyanın hərbi dəstəyi ilə bütün ölkə ərazisində qruplaşmalara qarşı birgə əməliyyatlar keçirir.

**AZƏRTAC-ın materialları əsasında**

# Şəhid övladlarının müayinə və müalicəsi aksiyası keçirilib

*Müdafiə Nazirliyi və Azərbaycan Tibb Universitetinin (ATU) birgə təşkilatçılığı ilə 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü və Ramazan bayramı münasibətilə şəhid övladlarının ödənişsiz müayinə və müalicəsi aksiyası keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirin əsas məqsədi şəhid övladlarının sağlamlığı ilə bağlı problemlərin erkən aşkarlanaraq müayinə edilməsi və onlara müalicənin təyin olunmasıdır. Aksiya çərçivəsində şəhid övladlarının sağlamlığının qorunmasına, onların müayinə və müalicəsinə, dispanserizasiyasının təşkilinə xüsusi diqqət yetirilib.

İyunun 3-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında baş tutan tədbirdə Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi Qadınlar və hərbi qulluqçuların ailələri üzrə iş şöbəsinin müdiri Zümrüd Səmədova bildirib ki, ölkəmizin müstəqilliyi uğrunda şəhid olanların ailələrinə hər zaman dövlət rəhbərliyinin, o cümlədən Müdafiə Nazirliyinin xüsusi diqqət və qayğısı olub. "Şəhidlərimizi yad etmək, onların xatirəsini uca tutmaq hər birimizin ən müqəddəs borcudur. Bu ailələrin mövcud problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Müqəddəs Ramazan bayramı münasibətilə keçirdiyimiz bu aksiyada da onların yanında olmaq istədik", - deyə Z.Səmədova qeyd edib.

Gün ərzində uşaqların pediatr, oftalmoloq, stomatoloq, ortoped tərəfindən müayinəsi aparılıb, qan analizləri götürülüb və ultrasəs müayinəsi keçirilib. Həkim baxışı və müayinələr zamanı ortaya çıxan problemlərin yerində aradan qaldırılması üçün tədbirlər görülüb.

Şöbənin həkimləri şəhid övladlarının müayinəsində böyük həvəslə iştirak etdiklərini vurğulayıblar. Uşaqların valideynləri bu xeyirxah aksiyanın təşkilatçılarına öz təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, aksiyada daha 30 şəhid övladının müayinədən keçməsi və müalicəsinin aparılması nəzərdə tutulub.

# İdman

## Qadın cüdoçularımız Rumıniyada Avropa açıq kubokunda 4 medal qazanıblar



Rumıniyanın Kluj şəhərində cüdo üzrə Avropa açıq kubokunda Azərbaycanın qadın cüdoçularından ibarət komandası uğurla çıxış edərək 1 qızıl, 3 bürünc medal qazanıb.

Qızıl medalı komandamızın aktivinə 52 kiloqram çəki dərəcəsində mübarizə aparan Gültac Məmmədəliyeva yazdırıb. İdmançı Fransa, İspaniya, Kuba və Macarıstandan olan rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. Leyla Əliyeva, Ayşə Qurbanova (hər ikisi 48 kq) və İçinkorloo Munxtsedev (57 kq) Avropa kubokunun bürünc medalını qazanıb.

## Azərbaycanın iki gimnastı Dünya Kubokunda qızıl medal qazanıb



Ötən həftə Osiyekdə (Xorvatiya) idman gimnastikası üzrə "Challenge" seriyasına aid Dünya Kuboku yekunlaşaraq, estafeti Sloveniyanın Koper şəhərinə təhvil verdi. Təmsilçilərimiz bu yarışda da uğurlu çıxışları ilə fərqlənməyi bacarıblar.

Final yarışlarında gimnastlarımız Marina Nekrasova və Nikita Simonov iki qızıl medal qazanaraq, "Bonifika" idman arenasında bir gündə iki dəfə dövlət himnimizi qürurla səsləndiriblər.

Millimizin hesabına ilk qızılı Marina yazdırıb. Dayaqlı tullanma ilə hərəkətlərinə görə 14.475 xal alan gimnastımız bütün rəqiblərini üstələyib. Çox keçmədən daha bir qızıl xəbəri Nikitadan gəlib. Təmsilçimizin halqalardakı çıxışı ona bu dəfə də birinciliyi qazandırıb. Gözləntiləri maksimum doğruldan Nikita, çıxışının yekununda 14.600 xal alaraq fəxri kürsünün ilk pilləsində qərarlaşıb.

## Azərbaycanlı kikboksçu Londonda rəqibinə qalib gəlib



Londonda keçirilən "King of Kings" (KOK) turnirində azərbaycanlı kikboksçu rəqibinə qalib gəlib.

Elxan Əliyev 71 kiloqram çəkidə böyük britaniyalı rəqibi Natan Eppsi məğlub edib.

## Azərbaycan çempionatında ən güclü şpaqaçılar müəyyənləşib



İyunun 2-də Azərbaycan Texniki Universitetinin İdman Sarayında qılıncoynatma üzrə Azərbaycan çempionatına start verilib.

Azərbaycan Qılıncoynatma Federasiyası (AQF), Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən yarışın ilk günündə kişi və qadın şpaqaçılar arasında qaliblər müəyyənləşib.

Kişilər arasında Kənan Əliyev fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Xalid Əliyev ikinci olub. Barat Quliyev və Fərrux Səfərov isə bürünc medalla kifayətləniblər. Qadınlar arasında Elmira Xudaverdiyeva Azərbaycan çempionu olub. Azərin İdriszadə fəxri kürsünün ikinci pilləsində qərarlaşıb. Alfiyə Abdinova və Məryəm Sadıxova isə bürünc medal qazanıblar.

Qaliblər diplom və medallarla təltif olunublar. Bundan əlavə ilk 3 yerin sahiblərinə AQF tərəfindən pul mükafatları təqdim olunub.

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib



*ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyunun 4-də Xocavənd rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik, onun səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Martin Şuster keçiriblər.

*Hərbi texnikalar, silahlar*

## "Şahin-1" ballistik raketi

*Pakistan istehsallı "Xatf" adı altında tanınan "Şahin-1A" taktiki-operativ ballistik raketi özündə orta məsafəli qatıyanacaqlı ballistik raketi ehtiva edir. "Şahin-1" nəslindən olan raketlərin hazırlanmasına 1995-ci ildən başlanılıb.*



Raket nüvə başlıqlarını daşımaq üçün yaradılıb. Pakistan ordusunun silahlanmasında bu tip bir neçə raket kompleksi buraxıcı mobil qurğuların üzərində yerləşdirilib. 1999-cu ilin aprelində Ormaın hərbi dəniz bazasından 750 kilometrlik məsafəyə qədər "Şahin-1" raketinin sınaq buraxılışı yerinə yetirilib. Bu raketlər adi və eləcə də 1000 kiloqrama qədər döyüş başlıqlarını daşıya bilər. Verilən məlumata görə, Pakistan 2012-ci ilə qədər müvəffəqiyyətlə "Şahin-1A" ballistik raketinin sınağını həyata keçirib.

2015-ci ilin dekabr ayında isə döyüş başlıqlarını daşıyan ikinci "üst-üst" "Şahin-1A" raketinin texniki xüsusiyyətlərinin yoxlanılması məqsədilə onun sınağı keçirilib. Bu raket 900 kilometrlik məsafəyə qədər döyüş hissəsini çatdıra bilər.

Xüsusiyyətlərinə gəldikdə isə raketin uzunluğu 12,0 metr, diametri 1,0 metrdir. "Şahin-1" raketinin start çəkisi 19500 kiloqram, "Şahin-1A" raketinin çəkisi isə 10000 kiloqramdır. Mühərriki RDTT, buraxıcı qurğusu mobil, təkrarlidir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları əsgər Ağcabəyov Tural Təbriz oğluna və əsgər Əliyev Elvin Yaqub oğluna verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Samir HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 438
Nüsxə 3950